## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 6 noyabr (Çərşənbə günü) tarixli XXXII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Çaharşənbə, 29 məhərrəmülhəram sənə 1337. 6 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalətın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### ELANİ-RƏSMİ
### [RƏSMİ ELAN]

Acil ehtiyacat [ehtiyaclar] və istimdad [kömək istəmək] üçün telefonla gündüzləri 25-80, gecələri 6-23 nömrəli Polis Müfəttişi-Ümumiliyinə [Baş Polis Müfəttişliyinə] müraciət ediniz.

### ELAN

Azərbaycan Ordusu komandanı Nuri paşa həzrətlərini xüsusi ziyarət arzusunda bulunan zəvata [şəxslərə] elan olunur ki, ziyarətlərindən bir gün əvvəl isimlərini Ordu sərvəri Asəf bəyə qeyd etdirsinlər. Qəbul zamanı: qəbləzzəval [günortadan əvvəl] saat 10 – 12-yə qədərdir.

*10-1*

### ELAN

Tüccarın [tacirlərin], mütəəhhidlərin [podratçıların] və sənətkarların [istehsalçıların] dəvairi-əsgəriyyə [hərbi qurumlar] tərəfindən, əmtəə yaxud əmələ [işçi] vermələri xüsusunda müraciət edildikdə, sıra bəklənmədən və pək əcələ ilə işbu tələbi icra etməyə məcbur olduqları kəndilərinə elam ilə [bildirməklə], əks təqdirdə müttəhimlər məhkəməyə verilmədən Hökumət tərəfindən şiddətlə cəzaya düçar olacaqlarını elan eylərim.

*Daxiliyyə naziri:*
*Behbud xan Cavanşir*

### ELAN

1 – Rus zabitanı zabit uniforması, yəni paqon, şaşka [qılınc], furajka [hərbi papaq], işpor [mahmız] tarixi-elandan etibarən qırx səkkiz saat zərfində daşıyamayacaqlardır.

2 – Sivil [mülki] əlbəsə tədarükü xüsusunda düçari-müşkülat olanlar [çətinlik çəkənlər] paqon, şaşka, furajka, işporu çıxardıqdan sonra əsgəri əlbəsələrini geyə bilərlər.

3 – Müddəti-müəyyənənin [təyin olunan müddətin] xitamında qiyafətlərini təbdil etməyənlərin dərdəst olunacağı [saxlanacağı] elan olunur.

*Bakı Mövqe komandanı*
*1-1*

### ELANİ-RƏSMİ
### [RƏSMİ ELAN]

Saxta polis və zabit uniforması ilə kəndi-kəndilərinə yalandan təhərri [axtarış] məmuru (poiskovı) süsünü [görünüşü] verən İran əhli və bəzi yerli gənc müsəlmanlardan mütəşəkkil bir saxtakar kompaniyası daha təhərri komissarlığı tərəfindən dərdəst edilmişlərdir [tutulmuşdur]. Bunların isticvabatından [sorğu-sual edilməsindən] anlaşıldığına görə, cəbr [zor işlətmək] və təhdid surətilə safdilan [sadəlövh] əhalidən hələ para və saira alınmaqda və ya qəsb olunmaqdadır. Əhali tamamilə bilməlidir ki, heç bir məmura heç bir surətlə para və sair əşya verilmək haqqı və səlahiyyəti verilməmişdir. Məhbusin [məhbuslar] və mövqufin [saxlanılanlar] və ya hər hangi bir işdən dolayı rüşvət verməklə hər kəs əqrəbasının məhbusiyyət və mövqufiyyətinə [həbsinə və saxlanılmasına] fayda əldə etməyə bədəl [əvəzində; qarşılığında], ələqədaran [ələqədar şəxslər] şiddət tətbiqinə təşviq edəcəklərindən, kimsə gizli vasitələrə müraciət etməməli və hər kəsin nə cəbr və təhdid və ya iğfal [aldatma] vüqununda [baş verdikdə] dərhal: gündüzləri "25-80", gecələri də "6-23" nömrəli Polis Müfəttişi-Ümumiliyinə telefonla məlumat verməlidir. Polis Müfəttişliyi ildırım sürətilə hər kəsin ehtiyac və istimdadına [köməyinə yetişməyə] hazırdır.

*Polis müfəttişi-ümumisi Bəhaəddin*

### ELAN

Qafqaz Müsəlman Ordusuna 7 ay müddətində 150 min pud mal və qoyun əti vermək arzusunda olan zəvat [şəxslər] Mariinski caddədə 6 nömrəli evdə Ərzaq şöbəsindən şəraitini [şərtlərini] biləbilərlər.

*710 6-5*

### BAKI, GƏNCƏ VƏ BİLÜMUM [ÜMUMİYYƏTLƏ] AZƏRBAYCAN TACİRLƏRİ İLƏ ƏHALİYƏ ELANİ-RƏSMİ

Talan və ya oğurluq əşyası ilə alış-veriş edən saxtakar xırsızların bir an əvvəl yaxalanmalarını təmin və xalqı saxtakar xırsızların şərlərindən vəqayə [qorumaq] zimnində [yolunda] bər-vəchi-ati [aşağıdakı] təsəvvürat ittixaz olunmuşdur [tədbirlər qəbul edilmişdir]:

1. Heç bir tacirin "şot" təbir olunan rəsmi fatura almadıqca, axər [özgə] tacirdən hər hangi bir vəsilə ilə hər hangi bir şey alması şiddətlə məmnu [qadağan] olduğu kimi, əhalidən də hər kəsin nə tüccarandan [tacirlərdən], nə də qeyri kimsələrdən rəsmi fatura (şot) almadıqca çit, qumaş, möblə [mebel], xalı, səccadə, mücəvhərat və gümüş əşya, hübubat [dənli bitkilər] və heyvanat, hasili hər növ əşyadan bir şey almaları surəti-qətiyyədə [qəti surətdə] məmnudur [yasaqdır].

2. Şotsuz tutulacaq hər növ əşya və əmtəə miqdarı nə qədər az və ya nə qədər çox olursa olsun, müsadirə olunaraq əlaqədaranı [əlaqədar şəxslər] haqqında şiddətli təqibati-qanuniyyəyə [qanunla nəzərdə tutulan icraatlara] təvəssül olunacağı [başlanacağı] əhəmiyyətlə elan olunur.

3. İşbu elan 10 gün müddətlə nəşr olunacaqdır.

*Azərbaycan Polis*
*müfəttişi-ümumisi Bəhaəddin*

* * *

İkinci Azərbaycan firqəsi [diviziyası] taborlarında istixdam olunmaq [xidmətə qəbul edilmək] üzrə türkcə bilən 6 feldşerə lüzum vardır. Arzu edənlər vəsiqələri ilə bərabər, hər gün saat 2-dən saat 6 sonraya qədər Rotşildin evində firqə sərtəbabətinə [baş həkimliyinə] müraciət etsinlər.

### ELAN

Azərbaycan Cümhuriyyəti Polis müfəttişi-ümumisindən

Əhalinin 2 ay müddətində vərəqə almaları üçün elan etdiyim əmrə əlavə olaraq xəbər verirəm ki, bu əmr müsəlman qadınlarına aid olmayıb, fəqət arzu edənlər əkslərini [fotoqraflarını] alacaqlar.

### TÜRKİYƏ-İNGİLTƏRƏ MÜTARİKƏSİ
### [ATƏŞKƏSİ]

Hal-hazırda azərbaycanlıları ən artıq maraqlandıran, zehinləri işğal edən məsələlərdən birisi, Türkiyənin İngiltərə ilə münfərid [fərdi olaraq; müttəfiqlərindən ayrı] mütarikə əqd etməsidir [atəşkəs imzalamasıdır]. Buna görədir ki, bu saat nə yerə getsək, hər kəsə təsadüf etsək, əhvallaşmadan əvvəl bir sual eşidirsən: "Deyirlər türklər ingilislər ilə ayrıca barışırlar. Bu necə sözdür? Bəs Almaniya nə olur?"

Bu gün həman bu suala cavab verməyə səy edəlim.

Türklərin İngiltərə ilə münfərid mütarikə müzakiratına başlamalarını və bugün-sabah hüsninəticə [yaxşı nəticə] verəcəyini Xariciyyə naziri Nabi bəy həzrətləri Məclisi-Məbusanda [Parlamentdə] rəsmi surətdə elam [elan] etmişlərdi. Dün dərc etdiyimiz teleqraf, mütarikənin əqd edilmiş və bütün cəbhələrdə dava əməliyyatının dayandırılmış olduğunu bildirir. Deməli, Türkiyə-İngiltərə mütarikəsi artıq bir əmri-vaqedir [faktdır]. Bu surətlə varid olan sualın birinci qisminə cavab verilmiş olur. İkinci qisminə, yəni bəs Almaniya nə olur cəhətinə gəlincə, burası özü dəxi üç suala təqsim edilə [bölünə] bilər:

Nə üçün türklər ayrıca barışırlar?

Nə üçün özgə ilə deyil, İngiltərə ilə mütarikə müzakiratına girişilmişdir?

Bu müzakirədə Almaniyanın mənafeyi gözlənirmi yaxud bəs ittifaq və müttəfiqlər nə oldular?

Bu suallara cavab vermək üçün axırdan başlayalım və böylə nəticələr verən amillərin məntiqi səbəblərini arayalım:

Söz burasındadır ki, siyasətdə hissiyyata meydan yoxdur. Hissiyyata qapılan bir millət, siyasətdə həmişə qeyb edər. Hətta cəsarətlə demək olar ki, Almaniyanı böyük qalib mövqeyindən bugünkü hala gətirən yenə sabiq hökumətin hissiyyatla oynaması olmuşdur. Zira meydani-hərbdə alman əsgəri nə qədər qəhrəmanlıq və fədakarlıq ibraz edərək [göstərərək], müharibənin ibtidasından bu günədək bütün cahanı heyrətdə buraxmışsa, alman sənaəti [sənayesi] bu müharibədə nə qədər xariqüladəliklər ibraz etmişsə, hissiyyati-təkəbbüranəyə qapılmış alman diplomatları o qədər kutahbinlik [dar düşüncəlilik], o qədər bacarıqsızlıq göstərmişlərdir. Mülahizə buyurulsun ki, İtaliya dost ikən düşmən oldu. Bitərəflərdən bir məmləkət Almaniya tərəfinə keçmədi. Hətta hərb müqəddəratını bugünkü surətdə həll etdirən bir amil təşkil edən əmri-vaqe surəti almış qalibiyyəti Mərkəzi Dövlətlər ittifaqı əlindən qoparan Amerika məsələsinin bugünkü surətdə qət və fəsl edilməsinə [nəticələnməsinə] Almaniya diplomasiyasının hissiyyatı-xudpəsəndanəyə [özündənrazılıq hissinə] tutulması səbəb olmadımı?

Bu vəchlə [surətlə] anlaşılmış olur ki, siyasətdə hissiyyata qapılmamalıdır. Siyasətdə nə dost var, nə düşmən. Yalnız vətən və millət mənafeyi var. Bundan dolayıdır ki, ricali-dövlət [dövlət adamları] həmişə vətən və millətin mənfəətini nə yerdə görsə, oraya meyl göstərmələri lazımdır. Bu gün hərb səhnələrinə və övzayi-siyasiyyəyə [siyasi vəziyyətə] diqqət ediləcək olarsa, son zaman halların bütünbütünə dəyişdiyi nəzərə çarpar. Sabiqki mənada ittifaq və müttəfiqlərdən demək olar ki, yalnız bir ad qalmışdır. Məsələn Avropayimərkəzi İttifaqi-Mürəbbeyi [Mərkəzi Avropa Dördlü İttifaqı] hazırda yoxdur. Zira, daxildən və xaricdən bir çox zərbələrə məruz qalmış olan zəif Bolqariya hərb sırasından ağır yaralı bir əsgər kimi çıxaraq, yalnız xəstəxanadan başqa bir şeyə yaramaz olmuş və öz yoxluğu ilə ittifaqda bir "gədik" [boşluq; dəlik] təşkil etmiş oldu. Nəhayət, ümum müharib [savaşan] millətlər nəhayət dərəcə zə'f kəsb edib [zəifləyib] yorulduqları bir zamanda səhneyi-hərbə atılaraq böyük, təzə qüvvə sövqü ilə taleyi-hərbi Etilaf Dövlətləri tərəfinə döndərmiş olan Amerikanın çıxışı ilə Almaniya kəndisinin qaliblik mövqeyini itirmiş olub, artıq fütuhat [fəthləri, yeni torpaqlar ələ keçirməyi] deyil, nicatını düşünməyə məcbur oldu və özbaşına olaraq Amerikaya mütarikə və sülh təklif etdi. Bunu görən və daxili intizam və asayişi pozulmuş, parçalanmış olan Avstriya dəxi işlərin "başlı başını saxlasın"a müncər olacağını [varacağını] duyaraq, o dəxi öz tərəfindən Amerikaya bir nota verərək, sülh təklif etdi.

Bu surətlə İttifaqi-Mürəbbe özü-özündən pozulmuş oldu. Şimdi Türkiyənin gedəcəyi yol hangi idi? Əlbəttə, hazırda tutduğu yoldur ki, gedir.

Etilaf dövlətlərinin ittifaqına gəlincə, demək olar ki, heç o da İttifaqi-Mürəbbedən yaxşı halda deyildir. Zira, mütarikə müzakiratının başlanması və gedişinə baxılarsa, mötəliflərin [Etilaf üzvlərinin] dəxi ittifaqının pozulduğu anlaşılır. Belə ki, əvvəla, Etilaf dövlətləri tərəfindən bu vaxtadək yalnız Amerikanın müzakiratda bulunması və eyni zamanda İngiltərə, Fransa və italiyalıların sülh təmənnaları, onların da arasında rəy birliyi olmadığını göstərir. Saniyən [ikincisi], sülh sözü meydan alandan bu günədək Yaponiyanın bir söz belə sülhün lehinə ya əleyhinə söyləməməsi, digər tərəfdən İngiltərənin Türkiyə ilə münfərid müzakirata başlaması, 14 ağustos [avqust] 1914 tarixli London əhdnaməsinə [müqaviləsinə] zidd olduğundan, məzkur [adı çəkilən] əhdnaməni pozmuş olur. Əhdnaməyə görə, Etilafi-Müsəlləs [Üçlü Etilaf] tərəfində müharibəyə girişən dövlətlərin heç birinin ixtiyarı yoxdur ki, müttəfiqlərinin rizasını hasil etmədən tək başına mütarikə ya sülh müzakiratına girişsin. Bu surətlə son hadisatdan dolayı, məzkur London əhdnaməsi pozulmuş və mötəliflər arasında dəxi ittifaq silsiləsinin qırılmış olduğu görülməkdədir. Nəticə etibarı ilə vəziyyəti-siyasiyyə böylə bir şəkil alır.

Hər dövlət ittifaq və müttəfiq qeydi çəkmədən, yalnız öz mənafeyini nəzərə alaraq, mövcudiyyət və vəziyyətini təminə çalışır.

Türkiyənin nə üçün başqa bir dövlət ilə deyil, İngiltərə ilə uzlaşması sualına gəldikdə, bunun iki səbəbi var: birisi əsgəri, digəri siyasi.

Mütarikə sözü ilə hərb xəritəsi mülahizə ediləcək olarsa, burası pək təbiidir. Müharib [savaşan] dövlət dava etdiyi tərəf ilə mütarikə bağlar. Türklər demək olar ki, bütün cəbhələrdə, Fələstin, Beynənnəhreyn [İkiçayarası], İran cəbhələrində İngiltərə ordusu ilə dava edirlərdi. Təbiidir ki, mütarikəni də onunla bağlamalı idilər.

Digər tərəfdən, "Şərq məsələsi" adı ilə məruf olan [bilinən] məşhur bir siyasi məsələ ilə az-çox aşina olanlar bilirlər və Türkiyə Hökuməti müharibəyə girişərkən, o vaxtkı sədrəzəm Səid Həlim paşa həzrətləri Amerika mühərrirlərindən birisi ilə müsahibə əsnasında bəyan etmişlərdi: Türkiyə Hökuməti bu müharibəyə fütuhat və qalibiyyət tamahı ilə deyil, yalnız kəndi istiqlaliyyət və mövcudiyyətini müdafiə və mühafizə üçün girişmişdir. Necə ki, türklərin müharibəyə başlamalarının yaxın səbəbi mənhus "kapitulasyon" məsələsi oldu.

Bir tərəfdən Etilaf dövlətləri kapitulasyon ləğvinə razı olmadıqları halda İttifaqi-Müsəlləsin riza göztərməsi, imperator Vilhelmin Türkiyə və islamlara qarşı hüsni-müamilə və rəftarı [müsbət yanaşması və xoş rəftarı], Türkiyəni İttifaqi-Mürəbbeyə cəlb etdi. Cəsarətlə demək olar ki, Türkiyənin o vaxt Almaniya tərəfinə keçməsinin ümdə müqəssiri, inad və ləcacətini [tərsliyini] bir dəqiqə əldən buraxmayan və Türkiyəyə qarşı müəyyən bir məqsəd təqib edən rus cahangirləri siyasəti və İngiltərə, Fransa siyasiyyununun [siyasətçilərinin] bəzi xətaları oldu. Əlqissə [qısası], dörd il yarım bundan müqəddəm [əvvəl], Türkiyənin mənafeyi-həyatiyyəsi [həyati mənafeyi] onun müharibəyə girişməsini, həm də Almaniya tərəfində girişməsini tələb etdi.

Şimdi isə, mənafeyi-milliyyə müharibənin bitirilməsini tələb edir. Çünki, Dövləti-Aliyyəyi-Osmaniyyənin mənafeyi-milliyyə, diniyyə və iqtisadiyyəsi [milli, dini və iqtisadi mənafeyi] hamıdan ziyadə İngiltərə ilə təmas edir ki, bunu da isbata hacət yoxdur. Zira, islam aləmində Türkiyənin vəziyyət və mövqeyi və adicə coğrafiya xəritəsi bunu təsdiq edir. Belə olan surətdə, Türkiyə Hökuməti həmişə vətən, din və millət mənafeyinə xidmət etdiyi üçün, bir dəqiqəni belə fövtə verməyərək, İngiltərə ilə mütarikə və sülh müzakiratına girişməli olurdu.

Həm böylə də etmişdir.

*Xəlil İbrahim*

### GƏNCƏDƏ MİLLİ ZABİTAN TƏFTİŞ VƏ İMTAHAN MƏRASİMİ

### III

Heyət yola düşərkən, cavan balalar dəxi nizamla şərqilər oxuya-oxuya şəhərə rəvanə oldular [yola düşdülər]. Yol uzunu əhalinin nəzər-diqqətləri onlarda idi. Heyət şəhərə varid olduqda, Bələdiyyə rəisi, şəhər tərəfindən hazırlanmış ziyafətin xəbərini verdi. Heyət, "Sentral" otelində nüzul eylədilər ["Sentral" otelinə düşdülər]. İki yüzdən ziyadə mehman dəvət olunmuşdular. Burada beynəlmiləl bir ittihad [birlik] görülürdü. Bütün millətlərin nümayəndələri hazır idilər. Süfrə başında Bakıdan gəlmiş əziz müsafirlər əyləşmişdilər. Süfrə açıldıqda Bələdiyyə rəisi böyük bir nitq söyləyib, heyət əzasına [üzvlərinə] mehman-nəvazlıq [qonaqpərvərlik] göstərmədə idi. Sonra Hökumət tərəfindən Maarif naziri Nəsib bəy Yusifbəyov həzrətləri camaata xitab olaraq böylə bir nitq irad eylədilər [söylədilər]:

*"Bu gün bütün millətlər nümayəndələri Azərbaycan balalarının nə dərəcədə müstəid [istedadlı] olduqlarını gördülər və bu halda böylə bir millətin hökumətinin davam etməsinə dəxi əmin ola bilərlər. Hökumət təşkil olunduqda bilafərqi-cinsü məzhəb, hamısını bir gözlə görməklə bərabər, öz işində davam etməkdədir. İnşallah yaxın zamanlarda Hökumət Məclisi-Müəssisan dəvət edəcək və onda Hökumət özünün bütün ixtiyarını Məclisə tövdi [əmanət] edəcəkdir. Məclisi-Müəssisan isə şəkli-idarə [idarə şəklini, idarə üsulunu] təşkil edər və bu barədə əmin olunuz ki, kimsə öz hüququnu itirməz. Ancaq, lazımdır ki, hər bir fərd Azərbaycan təbəəsi olduqda, gərək ona hüsn-təvəccöhünü göstərib, Hökumətin asudə yaşamasına təshilati-tammə [hər baxımdan köməklik] göstərsin. Əksi surətdə Hökumət, kimsə olursa-olsun, bilafərqi-cinsü məzhəb cəzasını verəcəkdir."*

Məclisdə hazır olan erməni vəkillərindən Bələdiyyə rəisi müavini Amaspur, öz nitqində Qafqaz İslam Ordusu komandanı Nuri paşa həzrətlərini yad edərək, pədərləri Əhməd paşaya xoşgəldin söylədilər və Nuri paşa həzrətlərinin Gəncədə göstərdiyi hümmətlərini bəyan eylədilər. Amaspur, xətmi-kəlamında [sözünün axırında] dedi:

*"Keçəndə nə olmuş, onu yad etmək lazım gəlmir. Nə olub isə olub. Zatən, Nuri paşa həzrətləri dəxi öz xitab-naməsində böylə buyurmuşlar ki, keçmişi Allaha tapşırdım. İştə keçənə güzəşt deyərlər. Vəli [ancaq] bundan sonra Azərbaycan hüdudunda olan bütün millətlər, kim olursa-olsun, bilafərqi-cinsü məzhəb öz vətəninin hüdudunu canla-başla gərək müdafiə etsinlər və bütün millətlər gərək bu rəydə olsunlar. Kimsə öz vətənini müdafiə etməzsə, o, əlbəttə, xaini-millət hesab olunacaqdır."*

İkinci dəfə olaraq Bələdiyyə rəisi, Azərbaycan Hökumətinin fəaliyyətindən bəhs edərək, bütün bələdiyyələrin Hökumət təhtiidarəsində [idarəsi altında] asudə yaşamağını ərz etdi və türk qardaşlarımızın uzaq yerdən gəlib, Hökumət əfradı [adamları] haqqında göstərdikləri qeyrəti bəyan eylədi və şahid olaraq bugünkü balaların məharətini yad eylədi və bu millətin gələcəkdə nə böyük mənası olacağını ərz etdi.

Əlavə olaraq, bu nöqtədə Daxiliyyə Nəzarəti idarə müdiri Mehdi bəy Hacınski haziruna [orada olanlara] ərz eylədi ki, bu günlərdə Bakıda böyük bir təlimgah açılacaq və burada 1200 millət balaları üçün öz zəkavətini [fərasətini] göstərməyə məkan olacaqdır. İnşallah, bir neçə aydan sonra belə bir şənliklər orada da olacaqdır.

Məclisdə hazirundan bu günü yad edərək, neçə nitqlər irad edildi. Axırda Nazim bəy həzrətləri camaatın fikrini cəlb edən böylə bir nitq söylədilər:

*"Bən Türkiyədən Gəncəyə gəldim. Azərbaycanlı qardaşlarımızın istedadını gördüm. Əfəndilər, siz özünüz bu gün gördünüz və təsdiq edə bilərsiniz. Bən bu nitqimi söylədiyimdə, öz tərəfimdən və bütün arxadaşlarımın naminə olaraq ərz edirəm. Bizi Azərbaycana göndərdilər və biz dəxi əmr mövcibincə [əmrə uyğun olaraq] buraya gəldik. Böyük zəhmətə düçar olaraq, özümüzü türk qardaşlarımıza yetirdik və bu yolda candan-başdan keçdik. Bunu bilməlisiniz ki, bən özümü Azərbaycanın qulu hesab edirəm və onun səlaməti yolunda tökdüyümüz qan, verdiyimiz başlar Azərbaycana halal olsun. Ənsəmimülqəlb [səmimi-qəlbdən] ərz edirəm. Hamısı bu yolda Azərbaycana qurban olsun, halal olsun."*

Nazim bəy həzrətlərinin bu nitqi böyük bir təsir bağışladı. İnsanın bədənini lərzə tuturdu. O şirinkəlam bu sözləri deyərkən bütün məclis huşüguş ilə [diqqətlə dinləyərək] durmuşdular. Hamısından "çox sağ ol, çox yaşayınız" sözündən başqa bir şey eşidilməzdi. Mütəəssir bir halda məclis dağıldı.

O günün axşamı heyət təlimgaha ziyafətə dəvət olundular. Burada dəxi, bir-birlərinə ehtiramat göstərildi. Bugünkü həyat insanın fikrini çaşdırırdı. Ağızlarda ancaq bir söz var idisə o da, təlimgah və zabitan əfəndilər idi.

Sabahkı günü heyət Yelenendorfa, nemsə [alman] kəndinə, Forerin evinə dəvət olunmuşdular. Burada dəxi, Azərbaycanın davamından söylənirdi [gələcəyindən danışılırdı] və ona asudə yaşamaq dilənirdi. Həmən günü saat 4-də heyət gərək Bakıya övdət edəydi [qayıdaydı]. Vəli [fəqət], nazir Nəsib bəy həzrətlərinin təziyəsi [yası, hüzürü] olduğuna görə və Əli paşa həzrətlərinin bərk naxoş olduğuna binaən, heyətin bir yarısı Gəncədə qalmağa məcbur olub, digərləri Bakıya rəvanə oldular [yola düşdülər]. Gəncə vağzalında genə Gəncə valisi və Bələdiyyə rəisi həzrətləri bütün əyan-əşraf və nümayəndələri ilə buraya gəlib, yola düşən həzəratı [mötəbər şəxsləri] müşayiət eylədilər. "Yaşa, yaşa" sədası ilə tren Bakıya rəvanə oldu.

*Elçi*

Bə'dəttəhrir [yazdıqdan sonra]: Azərbaycan Hökuməti qərardadı ilə Daxiliyyə naziri Behbud xan Cavanşirin əmrinə görə, Bakıda təlimgah düzəltmək üçün bir neçə məktəblər hazırlanır. Burada mühəndis və əmələlər [fəhlələr] iş görməkdədirlər. İnşallah, bir ay müddətinə Bakı təlimgahı düzələr. Təlimgaha daxil olmaq üçün nə növ və nə dairədə və nə proqram lazım gəldiyini bu gündən qareini-kirama [möhtərəm oxuculara] ərz etməkdə davam edəcəyəm. Hələlik ərz edə bilərəm ki, altı yüz zabit namizədliyi və altı yüz kiçik zabitlər üçün məktəblər hazırlanmaqdadır.

### TÜRK OCAĞI

Vaxtilə Bakıda onlarca cəmiyyət və bir çox sair təşkilat mövcud olub, ümum türk irəli gələnləri bu təşkilat başına toplaşaraq, millətin xeyri uğrunda müxtəlif yollarda çalışmaqda idi.

Mart-sentyabr dövri-mənhusundan [uğursuz dövründən] sonra bütün türk-islam cəmiyyətləri sanki "ölərək" özü-özündən yox oldu, fəqət cəmiyyətlər nə qədər yox olsa da, millətinin dərdinə çarə arayan cavanlarımız, əlhəmdüllah, əksəriyyən həyatda baqi [sağdırlar] və tərəqqi və təali [ucalmaq] yolunda çalışmağa hazırdırlar. İştə həmin cavanlar çalışmaq qəsdi ilə toplaşaraq 1328 sənəsi mart ayının 12-sində türklük paytaxtı olan İstanbulda açılmış Türk Ocağı cəmiyyətinin bir şöbəsini də Allahın inayəti və türk millətinin qeyrət və hümməti ilə yeni paytaxtımız olmuş Bakıda açmağa qərar verdilər.

Hökuməti-məhəlliyyə [yerli hökumət] tərəfindən cəmiyyətin güşadına [açılmasına] müsaidə [icazə] verilmişdir. Şimdi türklüyünü sevən, millətinə kömək etmək istəyən hər bir ziyalı türk, bu ocağın başına yığışmalı, bu ocağı öz səy və müavinəti [köməyi] ilə işıqlandırmalı, hərarətləndirməlidir ki, bu ocaq da öz işığı ilə millətimizi işıqlandırıb, öz istisi ilə milli vücudumuzu istiləndirə bilsin.

Türk Ocağının nizam və məqsədi bundan ibarətdir:

**Fəsil 1**

Adı və məqsədi

Birinci maddə: 12 mart 1328 tarixində İstanbulda, Türk Ocağı adlı bir cəmiyyət qurulmuşdur.

İkinci maddə. Cəmiyyətin məqsədi: İslam qövmlərinin başlıca mühümmü olan türklərin milli tərbiyə və elmi, ictimai, iqtisadi səviyyələrinin tərəqqi və etilası [ucalması] ilə türk irq və dilinin kamalına çalışmaqdır.

Üçüncü maddə: Cəmiyyət, məqsədini əldə etmək üçün Türk Ocağı adlı klublar açaraq dərslər, konfranslar, müsamirələr [yığıncaqlar; söhbət məclisləri] tərtib, kitab və risalələr nəşr etməyə və məktəblər açmağa çalışacaqdır. Milli sərvəti qorumaq və çoxaltmaq üçün, hər dürlü məslək və sənət ərbabı ilə görüşərək iqtisadi və zirai [kənd təsərrüfatına məxsus] təşviq və irşadlarda bulunacaq və bu kimi müəssisələrin doğu[lu]b-yaşamasına əldən gəldiyi qədər yardım edəcəkdir.

Dördüncü maddə: Ocaq, məqsədini təhsilə [hasil etməyə] çalışarkən, sırf milli və ictimai bir vəziyyətdə qalacaq, əsla siyasətlə uğraşmayacaq və heç bir vaxt siyasi firqələrə xadim bulunmayacaqdır [xidmət etməyəcəkdir].

**Fəsil 2**

Türk Ocağının əzası [üzvləri]

Beşinci maddə: Türk Ocağı, əsli [həqiqi] və fəxri əzadan [üzvlərdən] mürəkkəbdir. Əsli əza türklərdən ibarət olub, ayda ən az iki quruş iştirak bədəli verməklə mükəlləfdir. İki quruşdan fəzləsi [artığı] təbərrö [ianə] ədd edilir [sayılır]. Fəxri əza türklüyə və Türk Ocağına mənən və maddən fövqəladə müavinətdə [yardımda; xidmətdə] bulunan zatlardan [şəxslərdən] mürəkkəbdir.

Altıncı maddə: Cəmiyyətin əzasının 20 yaşından aşağı olmaması və bir cinayətlə məhkum və ya hüquqi-mədəniyyədən [mədəni hüquqlarından] məhrum bulunmaması lazımdır.

Yeddinci maddə: Türk Ocağına cəmiyyət əzasından iki kişinin tövsiyəsi və idarə heyətinin qərarı ilə girilir.

**Fəsil 3**

Təşkilat

Səkkizinci maddə: Türk Ocağının ümumi, istişarə [məşvərət], müraqibə [təftiş], idarə namı ilə [adlı] dörd heyəti vardır.

Doqquzuncu maddə: Ümumi heyət, bütün Türk Ocağı əzasının müəyyən bir nisbət dairəsində göndərəcəkləri mürəxxəslərin [nümayəndələrin] bir araya toplanmasından təşəkkül edir. Ümumi heyət, sənədə bir dəfə ictima edir [toplaşır]. Bununla bərabər, lazım gələrsə, ümumi heyətin və ya əsli əzadan yarısının və ya idarə heyətinin qərarı ilə fövqəladə olaraq toplana bilər. İdarə heyəti, ümumi heyəti ictimaya dəvət edir.

Onuncu maddə: Ümumi heyət, idarə heyətinin raporlarını istima [dinləyər] və müzakirə, Türk Ocağı büdcəsini tədqiq və təsdiq; istişarə, müraqibə və idarə heyətlərini intixab eylər [seçər]. Türk Ocağının tərəqqisinə xadim olmaq üzrə mürəxxəslər [nümayəndələr] tərəfindən veriləcək təqrir [raport] üzərinə də qərar ittixaz [qəbul] edir.

On birinci maddə: Ümumi heyət, hər ictimasında rəis və katiblərini gizli rəy [səs] və əksəriyyət [çoxluq, səs çoxluğu] ilə kəndisi intixab edər.

On ikinci maddə: İstişarə heyəti, Türk Ocağının tərəqqisinə mütəəlliq xüsusları [tərəqqisiylə bağlı məsələləri] təzəkkür ilə [qeyd edərək; yada salaraq], idarə heyətinə və ümumi heyətə mütaliəsini bəyan edəcək [öz görüşünü bildirəcək], risalələrə, dərslərə, konfranslara müavinət eyləyəcəkdir [yardım edəcək, dəstəkləyəcəkdir]. İstişarə heyəti əzası, ikinci və dördüncü maddələrdə mühərrər [yazılmış] cəmiyyətin məqsədinə tamamən xadim olduqdan başqa, türklüyə mühüm xidmətlərdə bulunaraq, şöhrət qazanmış zatlardan [şəxslərdən] olmaq üzrə ümumi heyət tərəfindən üç sənədə bir intixab olunur [seçilir].

On üçüncü maddə: Müraqibə heyəti, üç kişidən mürəkkəb olmaq üzrə, hər sənə ümumi heyət tərəfindən əksəriyyətlə intixab olunur. Müraqibə heyətinin vəzifəsi idarə heyətinin hesablarını və büdcəsini tədqiqlə, mütaliəsini [öz görüşünü; qiymətləndiməsini] ümumi heyətə bəyan etməkdir.

On dördüncü maddə: İdarə heyəti 7 əzadan mürəkkəb olub, hər sənə ümumi heyət tərəfindən əksəriyyətlə intixab olunur. Hər sənə ümumi heyətcə 7 kişi də idarə əzalığı namizədliyinə intixab olunur.

On beşinci maddə: İdarə heyəti əzası içindən bir rəis, bir rəis vəkili, bir katib, bir vəznədar [mühasib] intixab edir. Qərarlar əksəriyyətlə [səs çoxluğu ilə] ittixaz [qəbul] edilir.

On altıncı maddə: İdarə heyəti, müəyyən vaxtlarda ictima edir [toplaşır]. İqtiza etdikcə [lazım olduqca], rəis tərəfindən fövqəladə olaraq ictimaya dəvət olunur. Müqənnən [normal, növbədənkənar olmayan] ictimalarda məşru [qanuni; etibarlı] bir üzrə müstənid olmaqsızın [bir üzrü olmadan], üst-üstə dörd dəfə mövcud olmayan idarə heyəti əzası müstəfi [istefa etmiş] ədd [hesab] edilir və yerinə namizədlərdən ən ziyadə rəy [səs] qazanmış olan, rəis tərəfindən əzalığa [üzvlüyə] dəvət olunur.

On yeddinci maddə: İdarə heyəti, Türk Ocağını idarə edər. İkinci və üçüncü maddələrdəki cəmiyyətin məqsədlərini birər-birər meydana gətirməyə çalışar. Türk Ocağının büdcəsini tənzim və tətbiq edər. Bütün təbərröləri [ianələri] və aylıqları toplar. Lazım gələn məmurları təyin və istixdam edər [işə götürər].

On səkkizinci maddə: İdarə heyəti bütün müamilələrində [işlərində; fəaliyyətində] Türk Ocağını təmsil edər. Məsrəf sənədləri büdcəyə müvafiq olacaq və rəis ilə vəznədarın imzalarını möhtəvi bulanacaqdır [ehtiva etməlidir].

On doqquzuncu maddə: Cəmiyyətin məsul və mürəxxəsi [səlahiyyətli nümayəndəsi], idarə heyəti əzası arasından intixab edilir.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 6 noyabr (Çərşənbə günü) tarixli XXXII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

İyirminci maddə: Türk Ocağı ümumi, müraqibə, idarə heyətlərinin əzası ali və tali [ikinci dərəcəli] məktəblər məzunlarından, o dərəcə təhsil görmüş olanlardan intixab edilmək şərtdir.

**Fəsil 4**
Varidat
İyirmi birinci maddə: Türk Ocağının varidatı, əzasının aylıq təqsitləri [hissəli ödənişləri] və təbərrölər ilə dərs, konfrans, müsamirələrdən və nəşr olunacaq kitab və risalələrdən hasil olacaq təməttödən [qazancdan] ibarətdir.

**Fəsil 5**
İyirmi ikinci maddə: Bu nizamnamə, ümumi heyətin sülusən əksəriyyətiylə [üçdə iki çoxluğuyla] tə'dil olunur [dəyişdirilir]. Fəqət, əsli əzanın [həqiqi üzvlərin] beşdə birinin müştərəkən verəcəkləri təqrir [qərar; raport] və əsbab [səbəblər] mövcibincə [əsasında] məzbətəsi [qərarı; raportu] ilə tə'dil təklif etmə haqları vardır.

## TELEQRAF XƏBƏRLƏRİ

Berlin Peştədən xəbər verirlər ki, oktyabrın 28-ində vaqe olan qanlı toqquşmadan sonra, Cümhuriyyət lehinə hərəkat getdikcə şiddət etməkdədir. Fəhlələrin ümumi üsyanı gözlənməkdədir. Ümdə küçələr hər növ gediş-gəliş üçün qapanmışdır. Əsgər və polis dəstələri bilaaram [fasiləsiz] şəhəri dolaşmaqdadırlar. Camaat dəstə-dəstə bir yerə toplaşmaqdadır. Nümayişlər vaqe olur. Bu gün günorta zamanı nümayiş yapanlara atəş açılmışdır. Küçələrdə təsəlliamiz [təsəlli verici] intibahnamələr [vərəqələr] yapışdırılmışdır. Ershersoq (?) Venqriya [Macarıstan] istiqlaliyyətini vəd ilə əhalinin müavinət [kömək] göstərməsini xahiş etməkdədir.

Lahey 8 təşrini-əvvəl [oktyabr]. Belçikadan xəbər verirlər ki, Flandriya əsgərləri arasında narazılıq başlanıb. Flandriyanı təxrib etməkdən imtina edirlər. Onların əvəzinə ingilis əsgərləri göndərilir. Belçika Hökuməti üsyan edənləri məşhur fransız mərkəzlərində həbs etməyi qərara almışdır.

Xarkov Təşrini-əvvəlin 29-unda xəbər verirlər: Şəhər ətrafında partlayıcı top güllələri və bombalar anbarı kəşf edilmişdir. Bir çox tədhiş müamilatı [terror aktı] hazırlıqları açılmışdır. Xarkov ilə Krım və Don arasında olan posta münasibatı [əlaqəsi] qət edilmişdir [kəsilmişdir]. Dəmiryol işləri 1918-inci ildəkindən üç qat aşağıdadır. Hər cür yük münaqilatı [daşınması] bir çox istida [minnət] və xahişlər tələb edir. Yüklər artıq təxirlə [böyük gecikmələrlə] nəql edilməkdədir [daşınmaqdadır]. Hökumət taxıl bürosu təsəvvür etdiyi taxıl miqdarını hazırlamağa müvəffəq olmamışdır.

## SÜLH ƏTRAFINDA

Tiflis qəzetələrinin rəvayətinə görə, Türkiyə ilə Etilaf dövlətləri miyanında [arasında] qəbul edilmiş olan mütarikə şəraiti mövcibincə [atəşkəs şərtlərinə əsasən] Dardanel, ümumavropa barışığından sonra açılacaqdır. Türkiyədə bulunan alman qoşunları da ümumi sülh əqdindən [bağlanmasından] sonra Türkiyədən çıxarıla bilərlər.

* * *

Vyana Ordu Baş Komandanlığı, İtaliya Əsgəri Komandanlığı ilə oktyabrın 29-unda elçi vasitəsilə münasibata girişmişdir [təmasa keçmişdir]. Bundan belə qan tökülməməsi və hərəkati-düşmənanənin dayandırılıb, mütarikə əqd edilməsi üçün hər növ çarələrə təvəssül [müraciət] etməlidir. İtaliya Baş Komandanlığı əvvəlcə bu iqdamatı [təşəbbüsü] mənfi bir surətdə qarşılamışsa da, oktyabrın 30-unda axşam general fon Veber, mürəxxəslər [nümayəndələr] heyəti ilə bərabər müzakirədə bulunmaqdan ötrü müharibə xəttini keçmək üçün, İtaliya Baş Komandanlığı ilə sazişə girmək imkanını bulmuşdur. Hərgah bundan sonra İtaliya müharibə meydanında düşmənanə hərəkata davam edərsə, bunun təqsiri və məsuliyyəti düşmənimiz üzərinə düşəcəkdir.

*Baş Ərkanın Baş naçalniki*
*[Baş Qərargah Rəisi]*
*(imza)*

## SÜLH VƏ ALMAN MƏTBUATI

Sülh məsələsindən qızğın bir surətdə bəhs edən alman mətbuatı yazır ki, siyasi təşəbbüs hələ Almaniyanın əlindən çıxmamışdır və yeni hökumət məcburiyyətlə deyil, özü sülh istəyir və bunun cəbhə əməliyyatı ilə heç əlaqəsi yoxdur. Bu münasibətlə "F. Ç." qəzetəsində Jatinao yazır ki, məmləkətimiz hələ sındırılmamış və qüvvəsi hələ bitməmişdir. Biz ricət etdik [geri çəkildik], fəqət məğlub olmamışıq. Düşmənlərimiz görməlidirlər ki, məmləkət və millətin ruhu əsgərlərin ruhunu yüksəldir. Binaileyh [ona görə], Vilsona müraciət edilməsi bir xətadır. Sülh vaxtı hələ yetişməmişdir və cəbhəni möhkəmləşdirmək üçün əldən gələn qədər tədbir görülmədən, sülh təklifi vaxtından əvvəl atılmış bir addımdır.

"Lokal-Anzeyqer" deyir ki, bütün alman milləti onu şərəfsiz sülhə vadar etmək istəyənlər müqabilində qanının son damlasınadək vuruşacaqdır. Cəbhəmiz pozulmamış və hələ düşmən ərazisinin dərinlərindədir. Bolqariya cəbhəsində düşmənlərin təərrüzünə [hücumuna] qarşı müqavimət, bizim üçün 3 il müddətində müvəffəqiyyətsiz təhdid edən milyonlarca rus qoşunlarının qabağını saxlamaqdan asandır. Təklif etdiyimiz güzəştlər düşmənlərimizi qənaətləndirməsə, geniş məsafələr xarabaya mübəddəl olar [çevrilər], milyonlarca insan qurban verilər.

"B. T." yazır ki, Maks Badenski vəzifəsini anlayaraq, ağır yükü boynuna aldı və zənnimizcə, bizə də lazımdır ki, bu zamanda onun vəziyyəti-daxiliyyə və xariciyyəsini möhkəmləşdirək. Küçə mətbuatının yazdığı sülhü nə prins Maks qəbul edər, nə bütün alman milləti. Lazım gələrsə, Qambetta misilli, ən şiddətli müqavimət təşkil ediləcəkdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Azərbaycan Hökuməti Krım siyasi nümayəndəliyi vəzifəsini müvəqqətən Ukraynadakı siyasi nümayəndəmiz Miryusif Vəzirova həvalə etməyi təhti-qərara almışdır.

Nazirlər Şurası, Maliyyə nazirinə izin vermişdir ki, təzədən altmış milyon manat Bakı pulu buraxsın.

Nazirlər Şurası, sahiblərinə qaytarılan mədənlərin fəhlələrinə məvacib vermək üçün 2,100,000 manat təxsis edilməsini [ayrılmasını] təhti-qərara almışdır.

## AZƏRBAYCANDA

• Mövsuq mənabedən [etibarlı mənbələrdən] verilən məlumata görə, Petrovsk şəhəri hal-hazırda Türk-Azərbaycan qoşunları tərəfindən tamamilə mühasirə altına alınmışdır və şəhərdəki saldatların halını naümid hesab etmək olar. Bu surətlə ən yaxın günlərdə Petrovsk şəhərinin də süqutu gözlənilir.

**Qazax darülmüəlliminində imtahan**
Qazax darülmüəlliminində imtahanlar noyabrın 8-9 və dərslər 10-unda başlanacaqdır. Darülmüəlliminə girmək istəyən tələbələr, həman vaxtda Qazağa dəvət olunur. İmtahanla məktəbə qəbul olunanlar, Hökumət xərci ilə təhsildə bulunacaqlar. Açıq yerlər, ehtiyati [hazırlıq] və birinci siniflərdədir.

## BAKI XƏBƏRLƏRİ

Şuşa və Cavanşir qəzaları xalq məktəbləri müfəttişi Maarif Nəzarətindən, rus lisanı bilməyib, türk lisanını gözəl surətdə bilən zəvatın [şəxslərin] 1 və yaxud 2 sinifli kənd məktəblərinə müdir təyin edilmələrinin mümkün olub-olmadığını sual etmişdir. Maarif Nəzarəti cavab vermişdir ki, belə zəvatı müdir təyin etmək olar.

Balıq müəssisələri idarəsində istixdam edilən [xidmət edən] bütün qulluqçular yenidən, 1918 sənənin 5 iyuldakı vəzifələri ilə müvəzzəf edilirlər [vəzifələrinə qəbul edilirlər]. Bundan naşi [ötrü], xidmətçilərə təklif edilmişdir ki, iyulun 5-inə kimi müvəzzəf olduqları vəzifənin ifasına şüru etsinlər [başlasınlar]. Yenidən idarəyə qəbul edilən xidmətçilər təşrini-saninin [noyabrın] 1-indən etibarən ixrac edilirlər.

Bələdiyyə İdarəsinin məlumatına görə, Qusar meşəçiliyinin Yalama mövqifi [stansiyası] Tersk Dağıstan Cümhuriyyətinə daxil olunmuş. Binaileyh [ona görə], Bələdiyyə İdarəsi tərəfindən orada hazırlanmış odunu gətirmək mümkün deyildir. Bələdiyyə İdarəsi, Azərbaycan Hökumətinə müraciətlə təvəqqe edəcəkdir ki, məzkur [deyilən] odunların Bakıya gətirilməsinə izin hasil etmək üçün Dağıstan Hökuməti nəzdində təşəbbüsatda bulunsun.

Keçən sənədə Politexnik məktəbinin 1, 2, 3, 4[-cü] siniflərində təhsildə bulunmuş mütəallimin [şagirdlər] işbu vaxtlarda imtahan verməyə məzundurlar [icazələri var]. 1-inci sinif təşrini-saninin [noyabrın] 15-inədək, 2-nci sinif təşrini-saninin 2-sinədək, 3-üncü və 4-üncü siniflər isə kanuniəvvəlin [dekabrın] 1-inədək. Bu vaxtadək imtahan verməyənlər, həman sinifdə qalacaqlardır.

Maarif Nəzarəti elam [elan] etmişdir ki, Mariinski ünas [qız] gimnaziyası və Svyataya Nina qız məktəbinin ehtiyat [hazırlıq] sinifləri milliləşdirilmişdir. Məzkur [deyilən] siniflərdə dərs tamamilə türk dilində keçilir.

**Azərbaycan İstintaq Məhkəməsi**
Ədliyyə Nəzarəti tərəfindən Şurayi-Vükəla [Nazirlər Kabineti] müzakirəsinə Azərbaycan İstintaq Məhkəməsi Qanunu daxil edilir. Qanuna görə, məhkəmədə iki departament olacaqdır. Cinayət və miri [dövlət işləri; rəsmi işlər]. Ərazi işləri, miri departamentində baxılacaqdır.

* * *

Mətbəəxanaları müayinə etmək qəsdi ilə Bələdiyyə İdarəsi polis, tibbiyyə və səhiyyə nümayəndələrindən ibarət bir komisyon təşkil etməyi qərara almışdır. Bu müayinəyə məruz qalmamış müəssisələrə ticarət vərəqəsi verilməyəcəkdir.

Məhkəmeyi-əsgəriyyə [hərbi məhkəmə] Saqatelidzeni, Mariya Babayevanı əsəbiyyət halında [əsəbi halda; təzyiq altında] satış əqdini [müqaviləsini] imza etməkdə müttəhim etmişdir, təcavüzü rədd etmişdir. Arjanixa sabiq hesabla [keçmiş tarixdən] əqd bağlamaqda müttəhim edilmiş. Müttəhimlər 3 ay həbsə məhkum edilmişlər. Bu vaxtadək qalmaları da hesaba alınır. Əqd qeyri-həqiqi hesab olunmuş.

## GÜRCÜSTANDA

Maliyyə Nəzarətinin vergi şöbəsinin hesabına görə, təzə vəz edilmiş [qoyulmuş] çay vergisi sənəyə 900,000 rubləyə kimi mədaxil verəcəkdir.

Maliyyə Nəzarətində çaya aksiz təyin etmək üçün bir layihə tərtib verilir. Bu hesaba görə ildə xəzinəyə iki milyon yarım mədaxil varid olacaqdır [gəlir gələcəkdir].

Hökumət Parlamana spirtoya [spirtə] aksiz təyin etmək barəsində bir layihə pişnihad [təqdim] etmişdir. İşbu aksiz xəzinə varidatını 1,000,000 rubləyə kimi çoxaldacaqdır.

Hərbiyyə Nəzarətinin Hökumətə təqdim etdiyi məruzəsi mövcibincə [məruzəsinə əsasən], Kuban və Don ilə mal mübadilə etmək üçün lazımi tədabir ittixaz edilməkdədir [tədbirlər görülməkdədir]. İşbu məsələnin əməli cəhəti Mərkəzi Ərzaq Komitəsinə mühəvvəl edilmişdir [tapşırılmışdır].

**Erməni-gürcü ixtilafının bərtərəf edilməsi [aradan qaldırılması]**
Gürcüstan Hökuməti nəzdindəki Ermənistan nümayəndəsinə.

30 təşrini-əvvəl [oktyabr]. Bununla bərabər təşrini-saninin [noyabrın] 10-unda konqre dəvəti barəsində Ermənistan Hökuməti sədri naminə göndərilmiş olan 4542 nömrəli teleqramın surətini göndərirəm.

İrəvan radio mövqifinin [radiostansiyasının] üçüncü gündür ki, Tiflisə cavab verməməsindən dolayı, Xariciyyə Nəzarəti, nazirin əmri mövcibincə [əmrinə əsasən] rica edir ki, işbu teleqramın surətini Hökumətə pişnihad [təqdim] edəsiniz:

*"İrəvan. Ermənistan Hökuməti sədrinə. Həzrətlərinizin hüdud məsələsini sülh üzrə həll etmək barəsində etdiyiniz təklifə cavab olaraq, 10 təşrini-saniyə [noyabra] təyin edilmiş Zaqafqaziya Konqresinin iniqad ediləcəyini [baş tutacağını] bildirirəm. Burada həll ediləcək məsail [məsələlər] sırasında hüdud məsələsi də vardır. Ümidvaram ki, öz nümayəndələrinizi göndərəcəksiniz.*

*Xariciyyə naziri əvəzində*
*Ziraət naziri: Xomeriki."*

## XARİCİ XƏBƏRLƏR

**Ukraynada**
Verxnedneprovskda fəhlə və Avstriya mühafizə qoşunu miyanında [arasında] həbslər olmuşdur.

Kiev quberniyasının Zveniqorodsk, Kanevsk, Taraşansk qəzalarında mülkədarların əmlakı yanır. Almaniya saldatları, cəza dəstəsi sifəti ilə kəndçilər əleyhinə iştirak etmədən boyun qaçırırlar.

Novqorod-Seversk dairəsində [rayonunda] Çerniqovşinada Şura dəstələrinin Ukrayna üzərinə hücumu çoxalmışdır.

Almaniya-Avstriya qoşunları Ukraynanı təxliyə edirlər. Bundan dolayı, əhali arasında həyəcan artır.

Əhvali-ümumiyyədən naşi [ümumi vəziyyətə görə], getman sarayında gizli müşavirələr olur. Şayiata [şayiələrə] görə bəzi sazişlər gözlənir.

**Türküstanda ingilislər**
Moskva məlumatına görə, Aşirabadda Əfqanıstan və İran təriqi [yolu] ilə gəlmiş 15000-lik bir ingilis qoşunu qitəsi [hissəsi] durmaqda imiş. Bolşeviklərlə ingilislər miyanındakı [arasındakı] müharibədən naşi [müharibə səbəbindən] Xivə xaraba qalmışdır. Gözəl şəhər bilmərrə dağılmışdır. Şura əleyhinə olan sabiq rus zabitanından mürəkkəb dəstələr ingilislərlə bərabər Səmərqəndi işğal etmişlər. Bura üzərinə bolşevik qoşunları yürüməkdədir.

**Kimdir müqəssir?**
Stokholmda müntəşir "A." qəzetəsi yazır:

*"Belçika və Fransa ərazisinin işğal edilmiş hissələri barəsində Hertlinqin rəhin [girov] deməsi məlum olur ki, Etilaf hökumətlərinin xoşuna getməmişdir. Bunun dərəcəsi məlum deyil. Fəqət, maraqlı burasıdır ki, Etilaf hökumətləri ərazi işğal etmələrinin adını nə qoyacaqlar? Əlbəttə ki, mətbuatda ingilislərin Almaniya müstəmləkatını [müstəmləkələrini] və müqavilənamələrə müqayir [zidd] olaraq Misirin, Fələstin və Beynənnəhreyn kimi Türkiyə torpaqlarının işğalı və bunların qaytarılması məsələləri müzakirə ediləcəkdir. Böyləliklə, Etilaf dövlətləri öz işğalları ilə özgələr işğallarına başqa-başqa nəzərlərlə baxırlar. Bir işi almanlar görsələr, məzəmmət edilir, amma ingilislər gördükdə təsvib olunur [bəyənilir].*

*Belçika barəsində Almaniya kafi cavab vermişdir. Bununla, Almaniya sülh əqdi [müqaviləsi] uğrunda özündən asılı olan qədər çalışacağını sübut etmişdir.*

*Etilaf dövlətləri əhalisi hökumətlərinin sülh əqdinə zidd getmələrini görməlidirlər."*

**Almaniyanın 4 il müharibə ərzindəki hərbi qənaimi [qənimətləri]**
Volf acentəliyi [agentliyi] Berlindən xəbər verir: Dörd sənə davam edən müharibə zərfində [müddətində] Almaniya ordusu işbu müvəffəqiyyətlərə nail olmuşdur: Şərqdə 198,276 mürəbbe [kvadrat] kilometr yer işğal edilmiş. İtaliyada 14,423 mürəbbe kilometr, qərbdə Marna ətrafındakı ərazidən masiva [başqa] 5,323 mürəbbe kilometr və cümlətanı 213,002 mürəbbe kilometr yer işğal edilmişdir.

Bundan əlavə, Almaniya ordusu Finlandiyada 373,602 mürəbbe kilometr, Krımda 25,727 mürəbbe kilometr, Ukraynada 452,033 mürəbbe kilometr [yer işğal etmişdir]. Bunların bir hissəsi quldur dəstələrindən təmizlənmişdir.

Ləvazimati-hərbiyyə: 7,000 top, 24,600 pulemyot, 751,973 tüfəng, 2,867,500 ədəd top mərmisi, 10,225,900 tüfəng fişəngi, 2,000 təyyarə, 2,000 balon, 1,700 əsgəri mətbəx, 300 zirehli avtomobil, 3,000 lokomotiv, 28,000 vaqon, 65,000 araba.

4-üncü sənə ərzində 38,500 nəfər əsir. Müharibənin əvvəlindən bu vaxtadək tutulan əsirlərin miqdarı 3,500,000 nəfərdir.

**İngiltərə ictimaiyyununun [sosia-listlərinin] qətnaməsi**
Britaniya Fəhlələri İttifaqının İcra Komitəsi qət etmişdir ki, İttifaq; Almaniya təxliyəsi tərəfindən edilən müdhiş və xain sülh təklifinə Hökumətin nəzərini cəlb ediriz. Biz inanırız Müttəfiqlərin qismiəzəmi Almaniya və müttəfiqlərinin işğal etdikləri ərazini təxliyə etməyincə, sülh müzakiratına başlamamaq tərəfdarıdırlar. Sülh fəqət [ancaq] Bolqariyaya təklif edilən əsaslar üzrə ola bilər.

**Müstəmləkat [müstəmləkələr] nümayəndələri konqresi**
Londrada iniqad edən [baş tutan] İngiltərə müstəmləkatı nümayəndələrinin konqresi İngiltərə və müttəfiqlərinin müharibə məqsədləri və sülh şəraitinin yenidən bəyan edilməsi lehinə rəy [səs] vermişdir.

**Sülh müzakiratı haqqında ordu**
Mütarikə mövcibincə [atəşkəsə uyğun olaraq] ordu miyanında [arasında] baş qalxızmış əsəbiyyətdən [gərginlikdən] dolayı generalissimus Dias, İtaliya saldatlarına xitabən bir müraciətnamə elan edərək, mətanəti itirməyərək İtaliyanın qələbəsini gözləməyə dəvət edir.

**Cənubi slavların istiqlalı**
"Berliner taqeblatt"ın məlumatına görə, Xorvat, Slavoniya və Dalmatiyanın istiqlaliyyəti Zaqrebdə (Aqram) elan edilmişdir. İşbu kral[lıq]lar heç vəchlə Avstriya və Macarıstandan asılı olmayacaqlardır. Təklif işbu qərar ilə əsaslandırılmışdır:

"Biz İzonso ilə Vardar arasındakı ümum slavların birləşərək, həqqi-hakimiyyətə malik [suveren], müstəqil dövlət təşkil etmələrinə çalışırıq.

Slavoniya üç qövmdən mürəkkəb bir millət təşkil etdiyindən, tərzi-hökumət [dövlətin idarə şəkli] və məşrutəsi [konstitusiyası] Məclisi-Müəssisan tərəfindən təyin edilməlidir. Yeni dövlət, demokratik əsaslar üzərinə, ümum millətlərin milli və ictimai hüququnun bərabərliyi əsası ilə qurulmalıdır."

**Lüksemburqun Vilsona müraciəti**
"V. N. N." qəzetəsinin rəvayətinə görə, Lüksemburq Hökumət və Parlamanı Vilsona müraciətlə rica etmişdir ki, Lüksemburqun ərazisinin təxliyəsini almanlardan tələb etsin.

**Yaponiya**
Yapon Heyəti-Vüzərası [Nazirlər Kabineti] özünün Vilsonun notası tərəfdarı olduğunu bəyan etmişdir.

## İDARƏYƏ MƏKTUB
### Qardaşlarımızın nəzər-diqqətinə

Cürbəcür sənətlərdən məhrum olduğumuz haqqında vaxtilə təfsilən yazıldığından, dübarə yazılmasına ehtiyac görülməyir, zənnindəyəm. Bizlərdə sənət yox dərəcəsinə varmışdır. Sənətkarlarımız azdır. Binaileyh [ona görə], sənətkarlar yetirmək qəsdi ilə, bununla yazıb sənət öyrənmək arzusunda olan müsəlman qardaşlarıma xəbər verirəm ki, Nikolayevski küçədə "Oborot" nam [adlı] çəkməçi (çizmə) dükanında çəkməçilik sənəti öyrənmək üçün şagird qəbul olunur. Sənət öyrənmək istəyənlər hər gün həmin dükana müraciət edə bilərlər. Şagirdlər əvvəlcə məccanən [pulsuz] işləyib, gəldikcə öz işləri müqabilində mükafat alacaqlardır. Küçə-bazarları bekar dolanan müsəlman balalarının bu tövr sənətlərə tərğib edilməsi [həvəsləndirilməsi] arzu olunur.

*Kamali-ehtiram ilə:*
*Abdulla Ağamirzəyev*

**ELAN**
Mənzil Müfəttişliyinə iki nəfər türkcə qonuşan bakılı və yaxud Bakı şəhərinə bələd məmur lazımdır.
Ünvan: Mariinski caddədə, nömrə 6.
*711 6-6*

**YANĞINDAN SIĞORTA EDƏN MOSKVA CƏMİYYƏTİ**
Yanğından hər növ əmlak sığorta edir. Məsələn ev, ev müxəlləfatı [əşyası], mal, zavod, neft məhsulatı və qeyrə [və ilaxır].
Mərkəzi acentə: İ. P. Şreyder.
Unvan: Köhnə polis caddəsində Qinatinin 11 nömrəli evində. Telefon 5-47.
*239*

Məşhədibaba Fərhadovun adına Bakı deputatxanasından verilmiş pasport və Bəhriyyə [donanma] məktəbindən verilmiş kapitanlıq şəhadətnaməsi itib. Etibardan saqitdir [etibarsızdır].
*243*

**Doktor Ağahüseyn Kazımov**
Əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olanları qəbul edir hər gün saat 5-dən 7-yə kimi. Parapet, Şibi İbrahimovun evində, 3-ncü mərtəbə. Telefon 27-86.
*244 12-1*

**Diş həkimi Melçarski**
Torqovaya soqaqda Muxtarovun xanəsində nömrə 15. Dişlərə tədavi edir, doldurur, ağrısız ixrac edir. Gözəl altun və sairə dişlər emal edir. Xəstələri qəbul edir: sübh saat 9-2-yədək.
*210 12-8*

**Doktor Kamilə xanım İsmayılov**
Uşaq və əmrazı-daxiliyyəsi [daxili xəstəlikləri] olan naxoşları hər gün sabah saat 10-dan 2-yədək və axşam 4-7 qəbul edir.
Adres: Armyanski 16. Telefon 56-89.
*235 12-2*

**Diş müalicəxanası S.M. İtkinin süni diş laboratoriyası**
Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.
Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.
*208 25-15*

**Arvad diş həkimi Moiseyeva-Levin**
Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.
Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicə-xanasının müdiri nəzarəti altında süni dişlər qayırılır.
Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.
*216 25-12*

**Doktor F. S. Şteyn**
Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.
Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.
*232 25-4*

**Həkim S. L. Şklovskaya**
Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.
*209 12-8*

**Doktor Əliheydər Allahverdiyev**
Daxili naxoşları qəbul edir səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 6-ya kimi. İçəri şəhərdə bağın qarşısında Minaretski küçə, ev nömrə 1. Telefon nömrə 36-91. Б. Минаретская ул., д. N 1. Кв. N 236. Телеф. 36-91.
*12-3*

**Doktor Rza bəy Sultanov Paris Darülfünunundan**
Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. "Azərbaycan" qəzetə idarəsinin yanında.
*237 12-3*

**Mama-feldşer M. K. Markoviç**
Hamilə və azad olmuş qadınları qəbul edir. Bədənə dərman vurur və masaj edir. Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36. Burada həkim daxiliyyə və əmrazıtənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.
*240 12-2*

**İtibdir**
Oktyabrın 20-sində Ərəş uyezdi Qarağan kəndinin əhli Molla Adil Məhəmməd oğlu. 32 yaşında, əynində göy palto, boyu miyanə. Bu şəxsdən xəbəri olan Aziatski caddədə 17 nömrəli evdə Yusif Yusifova bildirənlərə mükafat veriləcəkdir.
*241 1-1*

**Diş təbibi Altmanın diş müalicəxanası**
Naxoşları qəbul edir saat 8-dən 10-a kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır, qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.
Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.
*25-1*

**Arvad diş həkimi Z. A. Şexter xanım**
Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.
Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.
*215 25-13*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Türkiyə-İngiltərə mütarikəsi***
"...14 ağustos 1914 tarixli London əhdnaməsinə...": Müharibə boyunca digər müttəfiqlərin razılığını almadan separat sülh bağlamamaq haqqında müqavilə Rusiya, İngiltərə və Fransa arasında Londonda 23 avqust (yeni tarixlə 5 sentyabr) 1914-cü ildə imzalanmışdır.

"Necə ki, türklərin müharibəyə başlamalarının yaxın səbəbi mənhus «kapitulasyon» məsələsi oldu.": Osmanlı imperiyasının kapitulyasiyaları: Osmanlının, başda Fransa olmaqla bir sıra Avropa dövlətləri ilə bağladığı müqavilələr nəticəsində əcnəbilərə verdiyi əlahiddə hüquq və imtiyazlar.

"Dövləti-Aliyyəyi-Osmaniyyə": Osmanlı dövlətinin rəsmi adı; "Ali Osmanlı Dövləti" mənasına gəlir.

***Türk Ocağı***
"1328 sənəsi mart ayının 12-sində": Türkiyədə Türk Ocağı cəmiyyətinin quruluş tarixi burada rumi təqvimlə verilmişdir; 25 mart 1912-ci ilə uyğundur.

***Teleqraf xəbərləri***
"Ershersoq (?) Venqriya istiqlaliyyətini...": Sual işarəsi qəzetdəki mətndə getmişdir.

***Sülh və alman mətbuatı***
"Bu münasibətlə "F. Ç." qəzetəsində...": Çox güman ki, "Fossişe zeytunq", yaxud "Frankfurter zeytunq" qəzet- lərindən biri nəzərdə tutulur.

"B. T." yazır ki...": "Berliner taqeblatt"qəzeti nəzərdə tutulur.

"Qambetta misilli, ən şiddətli müqavimət təşkil ediləcəkdir…": Burada söhbət Fransa Respublikasının (Üçüncü Respublika) elan edilməsində ən önəmli rolu oynayan siyasi xadimlərdən biri olan Leon Qambettadan gedir.

***Xarici xəbərlər***
"…getman sarayında gizli müşavirələr olur.": "Getman" sözüylə Ukrayna Dövlətinin (İkinci Getmanlıq) başçısı Pavel Skoropadski nəzərdə tutulur.

***Kimdir müqəssir?***
"Stokholmda müntəşir «A.» qəzetəsi...": "Aftonbladet" [Aftonbladet] qəzeti nəzərdə tutulur.

"Bunun dərəcəsi məlum deyil.": Burada söhbət Etilaf dövlətlərinin Hertlinqin sözü barəsində narazılıqlarını ifadə edərkən nə dərəcədə səmimi olduqlarının bilinməməsindən gedir.

***Almaniyanın 4 il müharibə ərzindəki hərbi qənaimi***
"Volf acentəliyi": Alman jurnalisti Bernhard Volf tərəfindən 1849-cu ildə təsis edilən Volf Teleqraf Bürosu [Wolffs Telegraphisches Bureau] nəzərdə tutulur.

"Balon": aerostat, hava balonu.

***İngiltərə ictimaiyyununun [sosialistlərinin] qətnaməsi***
"...Almaniya təxliyəsi tərəfindən edilən müdhiş və xain sülh təklifinə Hökumətin nəzərini cəlb ediriz.": Burada Almaniyanın işğal etdiyi yerləri təxliyə etməsi haqqında, alman kansleri tərəfindən edilən təklif nəzərdə tutulur. Cümlənin müvafiq hissəsi belə başa düşülməlidir: "...Almaniyanın təxliyəsi haqqında kansler tərəfindən..."

***Sülh müzakiratı haqqında ordu***
"Dias İtaliya saldatlarına xitabən bir müraciətnamə elan edərək, mətanəti itirməyərək İtaliyanın qələbəsini gözləməyə dəvət edir.": 1918-ci ilin axırlarına doğru İtaliya ordusu Armando Diasın komandanlığı ilə geniş çaplı hücum əməliyyatına başlamış və Avstriya-Macarıstan ordusunu darmadağın etmişdi. 3 noyabrda atəşkəs elan edilmiş və İtaliya cəbhəsində hərbi əməliyyatlara son qoyulmuşdu. Zəfər qazanıldığı əsnada atəşkəs elan edilməsi səbəbindən İtaliya ordusu arasında müəyyən gərginlik yaşanmışdı.

***(Elan)***
"Məşhədibaba Fərhadovun adına Bakı deputatxanasından...": Mart 1917 – iyul 1918-ci il tarixləri arasında Bakıda fəaliyyət göstərən hakimiyyət orqanı Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovet (Bakı Soveti) nəzərdə tutulur.